XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİ

№ 38

# DÜNYA




2021

**DÜNYA Məktəbi**

Azərbaycanda
ilk özəl universitet olan
Xəzər Universitetinin yaradıcısı,
professor **Hamlet İsaxanlı** tərəfindən
1998-ci ildə Xəzər Universiteti
nəzdində təsis edilib.



DÜNYA MƏKTƏBİ
2009-CU İLDƏN ETİBARƏN
IB MƏKTƏBİ STATUSU ALMIŞDIR.

MƏKTƏBDƏ TƏDRİS
ÜÇ DİLDƏ - AZƏRBAYCAN, RUS VƏ İNGİLİS
DİLLƏRİNDƏ APARILIR.

TƏHSİL 3 PİLLƏDƏN İBARƏTDİR:
İBTİDAİ TƏHSİL (I-IV SİNİFLƏR)
ÜMUMİ ORTA TƏHSİL (V-IX SİNİFLƏR)
TAM ORTA TƏHSİL (X-XI SİNİFLƏR)

## QƏBUL QAYDALARI

Məktəbə şagirdlər müsabiqə əsasında qəbul edilirlər. İmtahan nəticəsindən asılı olaraq şagird məktəbə qəbul edilərsə, valideyn tərəfindən məktəbə qeyd edilən sənədləri təqdim etməlidir:

- Ərizə
- Müqavilə
- Şagird şəxsi işi ( şəkil, şəxsiyyət vəsiqəsi daxil)
- Yaşayış yerindən arayış
- Valideynin iş yeri haqqında arayış
- Tibbi vərəqə



mail: ganja@dunyaschool.edu.az
facebook: Gəncə Dünya Məktəbi

Bizimlə əlaqə: (+994) 050 347 8905
Ünvanımız: Gəncə şəhəri, Kəpəz rayonu, Atabəylər prospekti 76

# XƏZƏR UNİVERSİTETİ
# GƏNCƏ DÜNYA MƏKTƏBİ



**2021-2022-ci**
**TƏDRİS İLİ ÜÇÜN**
**AZƏRBAYCAN,**
**RUS və İNGİLİS**
**BÖLMƏLƏRİNİN**
**BÜTÜN SİNİFLƏRİNƏ**
**ŞAGİRD QƏBULU**
**ELAN EDİR !**

**MƏKTƏBƏ QƏBUL**
**MÜSABİQƏ YOLU İLƏ**
**HƏYATA KEÇİRİLİR.**





**MƏKTƏBƏQƏDƏR HAZIRLIQ QRUPLARININ**
**BÜTÜN BÖLMƏLƏRİNƏ ŞAGİRD QƏBULU ELAN EDİR !**

# BU NÖMRƏDƏ






06 GƏNCƏDƏ İLK IB MƏKTƏBİ

16 POLEMİKA

24 DÜNYA MƏKTƏBİ İLƏ BİLKENT ORTAOKULUNUN GÖRÜŞÜ

10 MAHNI MÜSABİQƏSİ

12 QARABAĞ AZƏRBAYCANDIR !

15 BİLGİ PAYLAŞDIQCA ZƏNGİNLƏŞİR

50 СЕНСАЦИЯ!

53 внеклассное чтение!

54 DÜNYA ANA MƏKTƏBİ



BAŞ REDAKTOR
**NAİLƏXANIM İSAYEVA**

REDAKTOR
**AFAQ QƏMBƏROVA**

REDAKSİYA HEYƏTİ
**MƏRUFƏ MƏDƏTLİ**
**LEYLA CƏBRAYILOVA**
**RƏNA HƏSƏNOVA**

RƏSSAM
**MİR RAFİQ ƏBDÜLRƏHİMOV**

DİZAYNER
**ELGÜN MƏMMƏDZADƏ**

FOTOQRAF
**NİGAR FƏRMANOVA**
**LAMİYƏ PİRİYEVA**

# 2021








26 NİZAMİ GƏNCƏVİ İLİ

46 QARABĞIN GÖZÜ - ŞUŞA

36 PYP 100 DAYS

23 ТРАГЕДИЯ XX ВЕКА

44 VIRTUAL YOUTH CONFERENCE

48 21 FEVRAL - BEYNƏLXALQ ANA DİLİ GÜNÜ





XX əsrin faciəsi


2015-ci ilin
yanvarından nəşr olunur

DÜNYA
JURNAL

2021
№ -38



Mob: (994 70) 844 08 88
Tel: (994 12) 563 59 40/47/48
dunyaschool.edu.az
Bakı, AZ 1130, Əcəmi Naxçıvani 9



XƏZƏR UNİVERSİTETİ
NƏŞRİYYATI



15 Fevral 2021-ci il tarixində XƏZƏR Universiteti GƏNCƏ DÜNYA Məktəbinin ilk açılışı oldu. Açılış tədbirində XƏZƏR Universiteti və DÜNYA TƏHSİL KOMPLEKSİNİN təsisçisi professor Hamlet İsaxanlı, Gəncə İcra Hakimiyyətinin Başçısı Niyazi Bayramov, universitetin, təhsil kompleksinin əməkdaşları, Gəncə ziyalıları, ictimaiyyəti, məktəbin şagird-müəllim, valideyn kollektivi iştirak edirdilər.

Məktəblilərin və müəllimlərin çıxışları ilə başlayan tədbir Azərbaycan Respublikasının himni ilə açıldı. Himn bitdikdən sonra Vətən Müharibəsində canından keçən və düşmənin xain təcavüzü nəticəsində həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

# GƏNCƏDƏ İLK IB MƏKTƏBİ





Aytac
Mahmudova





Elşad
Rzayev

Tədbirdə çıxış edən Gəncə İcra Hakimiyyətinin Başçısı Niyazi Bayramov məktəbin fəaliyyətə başlaması münasibətilə hər kəsi təbrik etdi və Gəncə şəhərində belə bir təhsil ocağının yaranmasından məmnunluğunu bildirdi. O, məktəbin şagird-müəllim kollektivinə işlərində uğurlar dilədi.

Təsisçi professor Hamlet İsaxanlı Gəncə DÜNYA Məktəbinin yalnız IB məktəbi kimi fəaliyyətə başladığına görə məktəb və IB proqramı haqqında qonaqlara geniş məlumat verdi. Professor DÜNYA Məktəblərinin hər birinin açılışında həmtəsisçi Nailəxanım İsayevanın xüsusi rolunu və böyük əməyi olduğunu vurğuladı.





Professor Hamlet İsaxanlı
GƏNCƏ DÜNYA Məktəbinin
fəaliyyətə başlamasında böyük zəhmət və
əvəzsiz xidmətlərinə görə XƏZƏR Universitetinin
əməkdaşları Oqtay İsayev və Şahin İsayevə
təşəkkürnamə təqdim etdi.





XƏZƏR Universitetinin rektoru
İradə Xəlilova məktəbə tablo -
ilk hədiyyə təqdim etdi.

Daha sonra iştirakçılar DÜNYA Məktəbi
haqqında film izləyərək kompleksin
uzun illər ərzindəki fəaliyyəti ilə
yaxından tanış oldular.





Tərtibatı ilə
DÜNYA TƏHSİL KOMPLEKSİNİN
fəaliyyətini əks etdirən sərgi də
qonaqların marağına səbəb oldu.

Tədbirdən sonra
XƏZƏR Universiteti və
DÜNYA TƏHSİL KOMPLEKSİNİN
əməkdaşları VƏTƏN Müharibəsi
şəhidlərinin məzarlarını ziyarət etdilər.










QARABAĞ AZƏRBAYCANDIR !

QƏLƏBƏNİN BİR İLLİYİNƏ HƏSR OLUNACAQ FİNAL MƏRHƏLƏSİNDƏ QALİBLƏR ELAN EDİLƏCƏK.

Nəğmələr sərhədlər aşaraq dünyanı dolaşır, könüllər fəth edir. Mahnı var ki, ürəklərə sığal çəkir, mahnı var, şən ovqat yaradır, nəğmə var, insana həmdərd olur, nəğmə də var ki, ruha qida verir, mübarizələrə səsləyir, zəfərlərdən-zəfərlərə uğurlayır. 2020-ci ilin dekabr ayının son günlərində düşmən üzərində qələbəmizə həsr edilmiş "QARABAĞ AZƏRBAYCANDIR" adlı mahnı müsabiqəsinin əsas qayəsi də şagirdlərimizin vətənpərvərlik duyğularını, sevinclərini, düşmən üzərində zəfərimizin iftixarını bölüşmək, paylaşmaq idi. 3 turdan ibarət olan müsabiqənin brinci turunda iştirak edən 40 şagirddən 14 nəfəri növbəti turlara vəsiqə aldı. Hazırda bu şagirdlər üçün müəllimlərin dəstəyi ilə mahnılar seçilir , online qaydada məşqlər aparılır , ifaları səsyazma studuyalarında yazılır və video - çarxlar hazırlanır. Məktəbin rejissoru Murad Allahverdi, musiqi müəllimləri Sevda Rəhimova, Mehriban Ramazanovanın göstərdikləri böyük səy və zəhmətləri sayəsində şagirdlərdə xüsusi maraq yaranmış, onlar həvəs və fəallıqla bu müsabiqədə iştirak etmişlər.

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ



# QƏLƏBƏYƏ HƏSR EDİLMİŞ MAHNI MÜSABİQƏSİ





MUSİQİ ÜÇÜN SƏRHƏD YOXDUR, DEYİRLƏR... O ÖLKƏLƏR AŞARAQ ELDƏN-ELƏ, DİLDƏN-DİLƏ DOLAŞIR. MAHNILAR, TƏRANƏLƏR VAR Kİ, İNSANLARIN RUHUNU SAFLAŞDIRIR, KÜSÜLÜLƏRİ BARIŞDIRIR, SEVİNC, ŞADLIQ BƏXŞ EDİR.

ELƏ MUSİQİLƏR DƏ VAR Kİ, QƏLƏBƏDƏN QƏLƏBƏYƏ SƏSLƏYİR, ZƏFƏRLƏRDƏN ZƏFƏRLƏRƏ UĞURLAYIR. BƏLKƏ DƏ HEÇ BİR ÖLKƏDƏ AZƏRBAYCANDA OLDUĞU QƏDƏR VƏTƏNPƏRVƏR RUHLU NƏĞMƏLƏR BƏSTƏLƏNMƏYİB.

QARABAĞ ÜZEYİRİN, XANIN, QƏDİRİN YURDUDUR. ƏFSANƏVİ “QARABAĞ BÜLBÜLLƏRİ”NİN TORPAĞIDIR. GÖZƏLLİK VƏ SEHİRLƏ DOLU MUSİQİLƏRİ ÖZÜNDƏN DOĞAN XARI BÜLBÜLÜN VƏTƏNİNİN AZADLIĞA QOVUŞMASINI ŞAGİRDLƏRİMİZ DÜNYA MƏKTƏBİNDƏ KEÇİRİLƏN MAHNI MÜSABİQƏSİNDƏ BÖYÜK RUH YÜKSƏKLİYİ İLƏ SƏSLƏNDİRDİLƏR.

## QALİBLƏR

DAMLA LAÇİNBALA
NAHİDƏ ƏMİRLİ
DUYĞU ABASOVA
BABUR MƏMMƏDLİ
ZƏHRA YUSUBOVA
ALİM QASIMLI
FƏRHAD HACIZADƏ

HÜSEYN FƏRƏCLİ
LEYLA AĞAZADƏ
NƏRMİN KƏRİMOVA
ZEYNƏB HACILI
TURQUT KƏRİMLİ
MİR SƏİD MÜFİDZADƏ
ZEYNƏB TAĞIZADƏ

# VƏTƏN SAĞ OLSUN !





QARABAĞ AZƏRBAYCANDIR !





Əməkdaşlarımız yaxın günlərdə Cəbrayılda gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuş Rəhimov Zamin Vahid oğlunun Biləcəri qəsəbəsində yaşayan ailəsini ziyarət etdilər. 21.04.1988-ci il təvəllüdlü Zamin Cəbrayıl rayonunun Məzrə kəndində dünyaya göz açmışdır. Ailəsi, 2 yaşlı qız övladı vardır.




ZAMİN RƏHİMOV






"Vətən sağ olsun!" deyərək, odun-alovun içinə atılan Azərbaycan əsgəri, Tanrı sənə yar olsun, çox yaşa! Vətən yolunda qorxmadan, düşmən qarşısında bir addım belə geri çəkilmədən üzərinə gedən qazilərimiz ! Siz qəhrəmanlığınızla tariximizə dastan yazdınız!





44 günlük müharibədə xalqımız yekdilliklə cəbhəyə, əsgərlərimizə dəstək üçün əlindən gələni əsirgəmədi. Torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda arxa cəbhədə bütün qüvvəsilə çalışan vətəndaşlarımız zəfərimizdən, qələbəmizdən sonra da şəhid ailələrimizi və qazilərimizi tək qoymur, onların yanında olmağa çalışırlar.

DÜNYA Məktəbi də bu işdə özünün sevgi və diqqətini əsirgəməməyə çalışır, müharibə dövründə olduğu kimi, indi də özünə borc bildiyi müqəddəs vəzifəni yerinə yetirməyə səy göstərir.



Əməkdaşlarımız Ramini və ailəsini ziyarət etdilər. Döyüşlər zamanı ayağından ağır yaralanan qazimizin 3yaşlı və 4 aylıq azyaşlı oğul övladları var.



Qazi Tapdıqov
Ramin Nərbala oğlu

Allah ŞƏHİDLƏRİMİZƏ rəhmət eləsin! QAZİLƏRİMİZƏ cansağlığı, uzun ömür versin! Onlar tariximizin qəhrəmanlıq dastanlarıdır !







Şəhidim, yetişdiyin o uca məqamınla
əxlaqından, zəngin mənəviyyatından,
qazandığın o zirvədən də yüksəkdəsən!
Sən HAQQA qovuşmusan, NURA
qarışmısan! Sənin cihadın insanları
həqqaniyyətə yaxınlaşdırmaqdır! TƏBİƏT,
ZAMAN, YARADAN, səni seçib,
seçilmişlərdənsən, Şəhidim!



CƏBRAYIL RAYONU
04 OKTYABR 2020



Zeynalov Tural Ruslan oğlu oktyabr ayının 11-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub. 04.10.1987-ci il təvəllüdlü şəhidin 6 və 8 yaşlı iki oğul övladı var. Onun da ailəsini ziyarət edən məktəb əməkdaşları görüş zamanı ailə üzvlərinin xatirələrini, söhbətlərini dinlədi. Görüşlər çox səmimi və kövrək ruhda keçdi.



HAFİZ CABBAROV

# BİLGİ PAYLAŞDIQCA ZƏNGİNLƏŞİR

Dövlət İmtahan Mərkəzinin ekspert müəllimi, bir sıra tarix dərsliklərinin müəllifi, testologiyaya dair müxtəlif təlimlərin rəhbəri, tarixçi Hafiz Cabbarov Dünya məktəbinin virtual qonağı oldu.

Ekspert Dünya məktəbinin müəllim kollektivinə, xüsusilə də tarix müəllimlərinə testlərin tərtib olunması, aktuallıq, relevantlıq, obyektivlik, dürüstlük ən əsası da elmilik kimi keyfiyyətlərin təmin olunmasının vacibliyini vurğuladı və bu istiqamətdə dəyərli tövsiyələr verdi.

Hafiz Cabbarov seminarda tarix müəllimlərinin istəyi ilə, Qış Yekun imtahanında tarix fənni üzrə tərtib edilmiş testləri yüksək peşəkarlıqla təhlil edərək, ağırlıq dərəcəsini və keyfiyyət səviyyəsini açıqladı. O, qeyd etdi ki, imtahan sualları tədris proqramı çərçivəsində şagirdlərin yaş, bilik və bacarıqlarına uyğun tərtib edilmişdir.

Dünya məktəbinin geniş diapazonda dünya təhsil sisteminə inteqrasiyasını yüksək qiymətləndirdi və bu sahədə məktəbin qazandığı uğurları Azərbaycan təhsilinə verilən töhfələr kimi dəyərləndirdi.

Müəllimlərin fəal iştirak etdikləri görüş xoş təəssüratlarla sona çatdı.

# 525-ci qəzet

30 yanvar 2021-ci il, şənbə, №18 (5584) Qiyməti 40 qəpik

facebook.com/525.az; instagram.com/525ciqəzet www.525.az


# Mənim Qarabağım və ya Qarabağ düyünü






Hamlet İsaxanlı
professor



Rəşad Məcid
baş redaktor



Afaq Qəmbərova
jurnalist

DÜNYA Məktəbində XOCALI FACİƏSİNİN ildönümü qeyd edildi. Bu münasibətlə məktəbə dəvət edilən yazıçı-jurnalist, "525-ci QƏZET"in Baş redaktoru Rəşad Məcid, XƏZƏR Universiteti və DÜNYA Məktəbinin təsisçisi professor Hamlet İsaxanlı Qarabağ mövzusunda şagirdlərin suallarını cavablandırdı.







Rafiq Məmmədov

Şagirdlərlə Hamlet İsaxanlının "525-ci Qəzet"də dərc edilən "MƏNİM QARABAĞIM VƏ YA QARABAĞ DÜYÜNÜ" adlı yazısı müzakirə olundu. Məktəbin rəqs müəllimləri və şagirdləri XOCALI FACİƏSİNƏ ithaf edilən rəqs kompozisiyası nümayiş etdirdilər. Olduqca səmimi və maraqlı keçən görüş II QARABAĞ MÜHARİBƏSİNDƏ qazanılan zəfər haqqında uşaqların hiss və düşüncələrini ifadə edən film-rolikin nümayişi ilə başa çatdı.



Çingiz Nərmanov



Fərəh Rəsulzadə



Polad Əbdülkərim



Məryəm Qurbanova



Davud Nəsib







Teatral  rəqs tamaşası Günel ANARQIZININ **“QADIN ÜZLÜ ŞƏHƏR”** hekayəsinin motivləri əsasında qurulub. Tamaşanın quruluşçu – xareoqrafı **Murad Allahverdi,** solistlər Bakı Xareoqrafiya Akademiyasının müəllimi, Prezident təqaüdçüsü Çinarə Quliyeva, DÜNYA Məktəbinin rəqs müəllimi, Moskva Dövlət Universitetinin bakalavureatı Abid Aslanovdur.

Xareoqraf dünya şöhrətli caz ustası **İsfar Sarabskinin “The edge”** adlı musiqi kompazisiyası əsasında ifa olunmuşdur. Burada münaqişə dövründə  erməni təcavüzünə məruz qalan Azərbaycan qadınlarının ümumiləşdirilmiş obrazı təcəssüm etdirilir.

Tədbirdə **“VƏTƏN ÇAĞIRIR”** adlı rəqs kompozisiyası nümayiş etdirildi. Rəqsin xareoqrafı **Abid Aslanovdur**. İfaçılar “DÜNYA” rəqs ansamblının üzvləridir.



























## “ BİZ QALİB GƏLDİK
mövzusunda
video-inşaların təqdimatı





Tədbirdən sonra qonağı məktəblə tanış edən professor Hamlet İsaxanlı müəllim və şagirdlərin hazırladıqları teatr tamaşalarının şəkillərindən ibarət sərgi haqqında məlumat verdi.



Böyük Nizami Gəncəvi ili münasibəti ilə şagirdlər arasında keçirilən HÜSNXƏTT müsabiqəsində qaliblərin əlyazmalarından ibarət sərgi xüsusi maraq daşıyır.

Məktəbin rəsm müəllimləri – Aybəniz və Ləman divara çəkdikləri QƏLƏBƏMİZƏ həsr edilmiş “Qarabağ Azərbaycandır” adlı rəsmdə bu dilbər guşənin təbiətini, onun rəmzlərini, qədim tarixi olan Şuşa qalasını özündə əks etdirir.





# "QİSAS POVESTİ - ONLİNE DEBAT




**26 FEVRAL XOCALI SOYQIRIMI** İLƏ BAĞLI YAZAR SEVİNC NURUQIZI VƏ FİRUDİN BƏY KÖÇƏRLİ ADINA KİTABXANANIN ƏMƏKDAŞLARI İLƏ DÜNYA MƏKTƏBİNİN ŞAGİRDLƏRİ ARASINDA YAZARIN **"QİSAS"** POVESTİ ƏSASINDA ONLİNE DEBAT KEÇİRİLDİ. DEBATDA 7-ci SİNİF ŞAGİRDLƏRİ ƏSƏRLƏ BAĞLI FİKİR MÜBADİLƏSİ APARDIQDAN SONRA YAZARA SUALLAR ÜNVANLADILAR.



Məktəbin Azərbaycan dili və Ədəbiyyat müəllimləri **İlahə Rəhimova**, **Nilufər Əliyeva**, kitabxana müdiri **Mədinə Karahan** soyqırım, əsər və indiki zəfərimizlə bağlı maraqlı fikirlər söylədilər.

# ТРАГЕДИЯ XX ВЕКА




ПОКА ЕСТЬ ЖИЗНЬ НА ЗЕМЛЕ, ТРАГЕДИЯ ХОДЖАЛЫ ВСЕГДА БУДЕТ ОТДАВАТЬСЯ БОЛЬЮ В СЕРДЦАХ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА. И МЫ, УЧЕНИКИ 3 КЛАССА, ВМЕСТЕ С НАШИМ НАСТАВНИКОМ ЗАПУСТИЛИ НОВЫЙ ПРОЕКТ

**«ТРАГЕДИЯ XX ВЕКА».**

ДА, ПОБЕДА ОДЕРЖАНА! И НАМ, БУДУЩИМ ЗАЩИТНИКАМ РОДИНЫ, ПРЕДСТОИТ СОХРАНИТЬ ЭТУ СВЯТЫНЮ НА ВСЕ ВЕКА!

**ВЕЧНАЯ ПАМЯТЬ ВАМ, ШЕХИДЫ АЗЕРБАЙДЖАНСКОЙ ЗЕМЛИ!**

# Nizami Gəncəvi



Nizamiyəm,
xəyala dönən
biriyəm mən,
Həyəcanlı sözümlə
əbədi diriyəm mən







## Azərbaycan, Bakı DÜNYA Məktəbi

XƏZƏR Universiteti DÜNYA Məktəbinin və İhsan Doğramacı adına Bilkent ortaokulun müəllim və şagirdlərinin Nizami Gəncəvi və Yunus Emre yaradıcılığına həsr olunmuş online görüşü keçirildi.

Görüşdə XƏZƏR Universiteti və DÜNYA Məktəbinin təsisçisi professor Hamlet İsaxanlı giriş sözü ilə çıxış edərək, iştirakçıları salamladı. O, Azərbaycan və Türkiyə - iki qardaş ölkənin bir-birinin tarixinin, ədəbiyyatının, mədəniyyətinin, sənət dünyasının daha dərindən öyrənilməsinin zəruriliyini vurğuladı. Belə görüşlərin keçirilməsini təqdir edən alim hələ 1991-ci ilin YUNESKO tərəfindən həm Nizami Gəncəvi, həm də Yunus Emre ili elan olunduğunu qeyd edərək, dünya miqyaslı şair-mütəfəkkirlərin yaradıcılığını öyrənməyin hər bir şagird üçün vacibliyini vurğuladı.

Hamlet müəllim bildirdi ki, Nizami dünya ədəbiyyatına güclü təsir etmiş, ondan sonra şərq ədəbiyyatı Firdovsinin deyil, Nizaminin yolu ilə getmişdir. Yəni qayə şahları, hökmdarları tərif və təbliğ etmək deyil, Nizami kimi insanlar arasında sevgini tərənnüm etmək olmuşdur. Ona görə də Nizamidən sonra gələn həm türk, həm də fars şairləri onun adını böyük məhəbbət və hörmətlə çəkərək şairi özlərinin ustadı adlandırmışlar.

Dünya ədəbiyyatının klassiki sayılan Nizami Gəncəvinin Gəncədə dəfn edildiyini xatırladan professor Bilkent məktəbini Gəncə DÜNYA Məktəbinə

























## Türkiyə, Ankara Bilkent Ortaokulu

dəvət, böyük şairin məqbərəsini bərabər ziyarət etmək istəyini bildirdi. Daha sonra Türkiyə tərəfdən çıxış edən rektor yardımçısı Gürşad Ərdoğan çıxış edərək belə bir tədbirin təşkilini yüksək qiymətləndirdi və iştirakçıları təbrik etdi. O, bildirdi ki, həm Bilkent Universitetinin, həm də Bilkent ortaokulun Azərbaycana sevgisi vardır.

Görüşdə çıxış edən Bilkent ortaokulun direktoru Oya Kerman qardaş ölkə Azərbaycanı salamlayaraq, belə bir proyektin həyata keçirilməsinə görə hamıya dərin təşəkkürünü bildirərək, gələcəkdə bərabər işlərə uğurlar dilədi.

Tədbirdə hər iki ölkənin məktəbliləri Nizami Gəncəvi və Yunus Emrenin şeirlərini, aforizmlərini səsləndirdilər. Şərqin bu iki şairinin şeirlərinə bəstələnmiş mahnılar ifa edildi, Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın, Əhməd Cavadın şeirləri oxundu.

Görüşün yekununda DÜNYA Məktəbinin Azərbaycan və rus bölmələrinin direktoru Mərufə Mədətli türk dünyasının iki böyük şairinin söz incilərinə həsr edilmiş görüşlə bərabər tədbirlərin başlanğıcının qoyulduğunu, gələcəkdə şagirdlərin Azərbaycan-türk mədəniyyətləri ilə daha da yaxından tanış olacaqlarını vurğuladı. Hamıya dərin təşəkkürünü bildirən direktor Bilkent və DÜNYA məktəblərinin birgə əməkdaşlığına uğurlar dilədi.

Tarla, şeirlə, mahnıyla rövnəqlənən görüş xoş əhval-ruhiyyə ilə başa çatdı.

## Yunus Emre



Ölümden
ne korkarsın,
Korkma,
ebedi varsın.







Azərbaycan
Respublikası
Prezidenti
**İlham Əliyevin**
Sərəncamı:
2021-ci il
Azərbaycan
Respublikasında
**“Nizami Gəncəvi İli”**
elan edilsin.



# Nizami Gəncəvi

1141 - 1209

## 2021 - Nizami Gəncəvi ili

**İLYAS İBN YUSİF İBN MÜƏYYƏZ NİZAMİ ŞAİRİN POETİK TƏXƏLLÜSÜDÜR. “NƏZMƏ ÇƏKƏN, SÖZLƏRİ NİZAMA SALAN” DEMƏKDİR. NİZAMİ KƏLMƏSİNİN ÖZÜ “DÜZMƏK” MƏNASINA UYĞUN GƏLƏN “NƏZM” SÖZÜNDƏN GÖTÜRÜLMÜŞDÜR.**
O zaman müsəlman Şərqində belə adlar ən ali ziyalı zümrəsindən olan və mənəviyyat aləminə xidmət edən şəxslərə verilirdi.

**NİZAMİ BİLİK VƏ MÜDRİKLİKDİR...**

O, bütün dövrlərin mütəfəkkir şairidir... Şərqin böyük mütəfəkkiri, alim və filosofu Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Gəncədə doğulmuş, yaşayıb-yaratmış, ömrünü burada başa vurmuşdur. Əsrlərdir ki, Nizaminin şöhrəti bütün dünyanı dolaşır.

Nizami Gəncəvi lirik şeirlərin, “XƏMSƏ” (BEŞLİK) adı ilə məşhur olan “SİRLƏR XƏZİNƏSİ”, “XOSROV VƏ ŞİRİN”, “LEYLİ VƏ MƏCNUN”, “YEDDİ GÖZƏL”, “İSGƏNDƏRNAMƏ” poemalarının müəllifidir. Onun əsərlərində dövrünün ən humanist idealları və ideyaları əksini tapmışdır.

Nizaminin poemalarından götürülmüş “NUŞİRƏVAN VƏ BAYQUŞLARIN SÖHBƏTİ”, “SULTAN SƏNCƏR VƏ QARI”, “KƏRPİC KƏSƏN KİŞİNİN DASTANI”, “AĞILLI ÇOBAN”, “ŞAH VƏ XİDMƏTÇİ”, “XEYİR VƏ ŞƏR”, “FİTNƏ”, “SİMNAR”, “YARALI BİR UŞAĞIN DASTANI”, “SÜLEYMAN VƏ QARIŞQA”, “İSGƏNDƏR VƏ ÇOBAN” və digər mənzum hekayələri məşhurdur.

Bu böyük mütəfəkkir insanları ədalət, düzlük, mərdlik, xeyirxahlıq, təvazökarlıq və dostluğa çağırmış, dövrünün zalım hökmdarlarına tarixdən gətirdiyi misallarla ibrət dərsi verməyə çalışmış, "şəhərləri xaraba", "kəndli xirmənlərini dənsiz" qoyan, qoca qarıların ağ birçəyinə rəhm etməyən zülmkar hakimləri tənqid etmişdir. Nizami Gəncəvi insan ləyaqətini yüksək qiymətləndirmiş və göstərmişdir ki, insan boş və mənasız şeylərdən qaçmalı, elm və biliyə yiyələnməlidir:

İNSANA ARXADIR ONUN KAMALI,
ARXADIR HƏR KƏSİN DÖVLƏTİ, MALI...

QÜVVƏT ELMDƏDİR, BAŞQA CÜR HEÇ KƏS,
HEÇ KİMƏ ÜSTÜNLÜK EYLƏYƏ BİLMƏZ...

Nizami çox sevdiyi övladı Məhəmmədə nəsihətlərində də "qəflətdən oyanmaq, qeyrət vaxtıdır" - deyə onu elm öyrənməyə, birinci növbədə həkim olmağa həvəsləndirmişdir. Cəsarəti, hünəri, mərdliyi dönə-dönə tərənnüm edən şair yazır:

"MƏRD OLMAQ YAXŞIDIR DÜNYADA HƏR AN,
MƏRDLİK İLƏ ÇATAR ARZUYA İNSAN"

Böyük sənətkarın əsərlərində dostluğun tərənnümü mühüm yer tutur. O göstərir ki, dostluqda vəfa, sədaqət və sirr saxlamaq əsas şərtdir.

Şair ikiüzlülük, yaltaqlıq, paxıllıq, xəyanət və digər pis sifətlərin səbəbini hərislikdə, acgözlükdə, xudpəsəndlikdə, şöhrətpərəstlikdə görür və bunları tənqid edirdi. Nizami Gəncəviyə görə insan həyatının əsl mənası namuslu əməkdə, halal zəhmətdədir:

HƏYATIN CÖVHƏRİ YALNIZ ƏMƏKDİR.
ƏMƏKSİZ BİR İNSAN NƏYƏ GƏRƏKDİR?

"

ÖZÜN TƏK DİRİ BİL
MƏNİ CAHANDA
MƏN DƏ CANLANARAM,
SƏN CANLANANDA.



DÜNYAYA FATEH OLMAZ
ZÜLMKARLIQ, RƏZALƏT,
YER ÜZÜNÜN FATEHİ
ƏDALƏTDİR, ƏDALƏT!

“

ƏDALƏTİN MÜJDƏSİ BU DÜNYADA ŞAD EYLƏR,
ƏDALƏTİN İŞİDİR, ÖLKƏNİ ABAD EYLƏR.



MƏMLƏKƏTİN DAYAĞI ƏDALƏTDİR HƏR ZAMAN,
ƏDALƏTLƏ NƏSİBİN SƏADƏTDİR HƏR ZAMAN.

## 2021 - Nizami Gəncəvi ili

**Şair göstərirdi ki, sənətlərin pisi yoxdur, onların hamısı gərəklidir. Əsas odur ki, insan seçdiyi peşənin mahir ustası olmalıdır.**

**Nizami Gəncəvi namuslu əməklə məşğul olan insanları alqışlamışdır. Böyük şairin əməkçi xalqa rəğbət və məhəbbəti Fərhad obrazında parlaq əksini tapmışdır.**

**Poemalarından göründüyü kimi, Nizami QURANI oxumuşdu. Lakin o, tək İSLAM dininin fəlsəfi ehkamları ilə kifayətlənmir, antik filosofların əsərlərindən, antik rəvayətlərdən və mifologiyadan geniş surətdə istifadə etmişdir.**

**Təbiət elmləri arasında Nizami ASTRONOMİYAYA daha mükəmməl yiyələnmişdir. Şair “LEYLİ VƏ MƏCNUN” poemasında peşəkar bir alim kimi səma cismlərini heyrətamiz dərəcədə gözəl və dəqiq təsvir edir. Onlarla səyyarənin adını şəkib səciyyələndirir, onların bir-birilə düzülüş qaydasını göstərir.**

**Nizami öz dövrünün COĞRAFİYA ELMİ VƏ KOSMOQRAFİKA ədəbiyyatı ilə yaxından tanış olmuşdur, bunu “İSGƏNDƏRNAMƏ” də Makedoniyalı İsgəndərin yürüşlərinin təsvirindən aydın görmək olur.**

Onun əsərlərində RİYAZİYYAT və KİMYA barədə məlumatlar da müəyyən yer tutur. Nizami TƏBABƏT, ANATOMİYA, ƏCZAÇILIQ sahəsində də dərin və hərtərəfli biliyə malik olmuşdur.
Əsərlərində xəstəliklərin təsvirini, sağlamlığı qorumağın şərtlərini şair həmin dövrdə təbabət elminin qabaqcıl nailiyyətləri səviyyəsində təqdim edir.

O öz dövrünə məlum olan hər şeydən yaxşı xəbərdar olmuşdur. Şair fars və ərəb dillərini mükəmməl bilmişdir ki, yazdıqları buna yaxşı sübutdur. Hərtərəfli dərin biliyə, böyük istedada malik olan, söz sənətinə məharətlə yiyələnən Nizami Gəncəvi müstəqillik, həqiqətə xidmət yolunu seçmişdi.

Əsrlərdən bəri Nizami Gəncəvinin yaradıcılığı şair və sənətkarların sənət məktəbi, ilham mənbəyi olmuşdur. Üzeyir Hacıbəyli, Səməd Vurğun, Abdulla Şaiq, M.S.Ordubadi, Mehdi Hüseyn, Nazim Hikmət, Qara Qarayev, Fikrət Əmirov və başqa ədəbiyyat və incəsənət xadimləri Nizami Gəncəvi yaradıcılığından bəhrələnərək gözəl sənət əsərləri yaratmışlar. Ustadın Bakıda, anadan olduğu və Gəncədə abidəsi ucaldılmış, məqbərəsi ziyarətgaha çevrilmişdir.

“

KAMİL BİR PALANÇI OLSA DA İNSAN, YAXŞIDIR YARIMÇIQ PAPAQÇILIQDAN...



ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA, GEYSİN ƏMƏLİNDƏN DÜNYA ZƏRXARA...



## ƏSRLƏRDƏN BƏRİ NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞI ŞAİR VƏ SƏNƏTKARLARIN SƏNƏT MƏKTƏBİ, İLHAM MƏNBƏYİ OLMUŞDUR...



ÜZEYİR HACIBƏYLİ



LƏTİF KƏRİMOV



SƏMƏD VURĞUN



MƏMMƏD SƏİD ORDUBADİ



ABDULLA ŞAİQ



FİKRƏT ƏMİROV



NAZİM HİKMƏT



QARA QARAYEV



ARİF MƏLİKOV





## LƏTİF KƏRİMOV
## RƏSSAM

Azərbaycan xalçaçı-rəssamı, xalçaşünas, Azərbaycan SSR xalq rəssamı

Azərbaycan xalçaçılarının müxtəlif növlərinə aid kompozisiya və naxışları toplanmış və beləliklə Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Təbriz və Borçalı xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərini yığıb, onların rəngli reproduksiyasını hazırlamışdır. Lətif Kərimov 1940–1941-ci illərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr edilmiş beş xalça hazırlamışdır. Bu xalçalarda şairin "Xəmsə"sinə daxil olan poemalardan götürülmüş epizodlar təsvir edilmişdir.



Qara Qarayev "YEDDİ GÖZƏL" baletində klassik irsə müraciət etmişdir. 1947-ci ildə dahi Azərbaycan şairi Nizaminin əsərləri əsasında yazdığı və elə həmin ildə SSRİ Dövlət mükafatına layiq görülən "Leyli və Məcnun" simfonik poeması sənətkara böyük şöhrət qazandırmışdır.





Nizaminin insana sonsuz məhəbbətlə dolu fəlsəfi poeziyası Qara Qarayev üçün elə bir həqiqi ədəbi zəmin oldu ki, bəstəkar özünün ciddi səyi və axtarışları nəticəsində, eləcə də musiqili teatrın imkanları daxilində onu konkret tələblərə uyğunlaşdıraraq bitkin kompozisiyalı dolğun balet əsəri ortaya qoydu.



Çox keçmədən Qara Qarayev yenidən dahi Nizami Gəncəvi yaradıcılığına müraciət edir. Bu dəfə yalnız bir poema deyil, məşhur "Xəmsə"dəki bütün poemalar librettonun ədəbi əsasını təşkil edir. Nizami süjetlərinin motivlərindən sərbəst istifadə olunmuş bu baletə yeni personajlar gətirilmişdir.

Bir anlığa "Yeddi gözəl" baletini dinləyək. Bu baletin mayasında, musiqi toxumasında çırpınan "çahargah" qanadlarına, pərdələrinə diqqət yetirək. "Çahargah"ın baletə qonmuş hamımıza məlum xalları sanki yeni qüdrət, yeni əzəmət, yeni bir ahənglə səslənir.

Nizaminin qəzəl dühası Üzeyir Hacıbəyov
üçün yeni bir ilham mənbəyi olmuşdur.
Nizami qəzəllərinin dərin mənası bu qəzəllərə
layiq musiqi əsərləri yaratmaq tələb edirdi.
Dahi bəstəkar Üzeyir Hacıbəyov "Sənsiz", "Sevgili canan"
kimi qəzəl incilərinə musiqi əsərləri yaratmışdır.



Bu əsərlər Azərbaycan milli musiqisində yeni – "musiqili qəzəl" və ya "qəzəl-romans" janrının əsasını qoymuşdur. Maraqlıdır ki, şairin qəzəlləri onlara musiqi qoşulandan sonra daha çox populyar olmuşdur."





Fikrət Əmirov
BƏSTƏKAR

"Nizami simfoniyası" — azərbaycanlı bəstəkar Fikrət Əmirovun 1947-ci ildə Nizami Gəncəviyə həsr etdiyi simli orkestr üçün yazdığı əsərdir. Dahi şairin anadan olmasının 800 illiyinə həsr edilmişdir.

Simfoniyada Nizaminin ümumiləşmiş obrazı yaradılmışdır. Bəstəkar şairin obrazına ehtiramla yanaşır və ona xüsusi münasibət bəsləyir ki, bu da əsərə səmimilik, incəlik, gənclik təravəti, lirik hərarət və romantik ruh verir. Eyni zamanda simfoniya özünün fəlsəfi mənası və lakonik ifadə tərzi ilə diqqəti cəlb edir.





# SƏMƏD VURĞUN
## 1947- ci ildə Nizami Gəncəviyə şeir ithaf etmişdir.

Nizami Gəncəvinin Azərbaycan şair və yazıçılarının yaradıcılıqlarına təsiri böyükdür. O, nəinki Azərbaycan ədəbiyyatı tarixində, hətta bütün Şərqdə belə yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Nizamidən sonra yaşamış görkəmli Şərq şairləri əsrlərcə böyük sənətkarın əsərlərindən ilham almış, ondan sənətkarlıq öyrənmiş, onun irəli sürdüyü mütərəqqi fikirlərini tərənnüm edib, şairi böyük ustad kimi xatırlamışlar.

## Nizami

Yoğruldu bütün varlığın ümmidlə hünərdən,
Şimşək kimi keçdikcə qaranlıq gecələrdən,
Hər kəlməni, hər şeirini bir top kimi atdın,
Sevda yuxusundan bizi vaxtında oyatdın.
Xoş gəldin əzizim, gəlişindən ana yurdu
Dünya evinə bir yeni söz məclisi qurdu...
Keçdikcə nəsillər o sənin söz çəmənindən,
Ellər, obalar dərs alacaqdır hələ səndən.
Ölməz bu gözəl aləmə idrakla gələnlər,
Məna evinin sirrini vicdanla bilənlər.
Sənsən əbədiyyət dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var.
Aydanmı günəşdənmi yarandın, de, nədən sən?
Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən.

*Səməd Vurğun*
*1947*



# MƏMMƏD SƏİD ORDUBADİ

Azərbaycanlı nasir, şair, dramaturq, jurnalist, publisist və tərcüməçi Məmməd Səid Azərbaycanın Əməkdar İncəsənət xadimidir.






*"Qılınc və qələm" romanı Azərnəşr tərəfindən ilk dəfə 1946-cı ildə (I kitab) və 1948-ci ildə (II kitab) çapdan çıxarılmışdır.*



MƏMMƏD SƏİD ORDUBADİ



1946-1948 – ci illərdə yazdığı "Qılınc və qələm" romanında Nizami Gəncəvinin surəti mərkəzi yer tutur.
Lakin müəllif bununla kifayətlənməyərək dahi şairin yaşadığı dövrün hərtərəfli mənzərəsini canlandırmağa çalışmış, xalq həyatının geniş lövhələrini yaratmışdır.
Buna görədir ki, roman baş qəhrəmanının adı ilə deyil, əsərin həyat materialında mühüm yer tutan iki amilin – xalqın fiziki və mənəvi qüvvəsinin rəmzi olaraq «Qılınc və qələm» adlandırılmışdır.
"Qılınc və qələm"də böyük Azərbaycan şairi və mütəffəkiri Nizami Gəncəvinin yaşadığı dövrün geniş, hərtərəfli mənzərəsi yaradılmışdır.







NİZAMİ GƏNCƏVİ
1141 – 1209



Böyük şairə şeir
ithaf edənlərdən
biri də
Hikmər Ziyadır

Nizami! Nizami! Bu böyük adı
Həm yer, həm göy, ulu dünya tanıdı!
"Xəmsə"si insanlıq qüdrəti oldu.
Qüdrətdən yaranmış bu beş dastanı
Nuruna qərq etdi bütün cahanı.

"Sirlər xəzinəsi" birinci dastan
Söz açdı insanın ucalığından.
Fəlsəfənin yüz-yüz sirri açıldı,
Hər söz kəlamından işıq saçıldı.

İkinci dastanı "Xosrov və Şirin"
Ən saf duyğulardan söz açdı dərin.
Büsutunu eşqlə çapan Fərhadı
Eşqin zirvəsinə dağ tək ucaltdı.

"leyli və Məcnun"la, dünya ustadı
Məhəbbətə enməz heykəl yaratdı.
Məcnun dönməzliyin timsalı oldu,
Leyli sədaqətin misalı oldu.

"Yeddi gözəl" nədir, ən parlaq Gövhər,
Yeddilik üstündə qurulan əsər.
Şahları insafa, haqqa çağıran,
Vətəni sevməyin, örnəyi dastan!..

"Xəmsə"nin ulduzu "İsgəndərnamə"
Bir günəş işığı saçır aləmə.
Ədalətli dövran, xalqı firavan
Görmək diləyidir bu nadir dastan.








# ABDULLA ŞAİQ

“İSGƏNDƏRNAMƏ POEMASINI TƏRCÜMƏ ETMİŞDİR.

AZƏRBAYCANLI ŞAİR, YAZIÇI, DRAMATURQ, PUBLİSİST, PEDAQOQ, ƏDƏBİYYATŞÜNAS,TƏRCÜMƏÇİ, AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ BANİLƏRİNDƏN BİRİ




YAZIÇI, DRAMATURQ, TƏNQİDÇİ, İCTİMAİ XADİM, AZƏRBAYCAN XALQ YAZIÇISI, SSRİ DÖVLƏT MÜKAFATI LAUREATI

## MEHDİ HÜSEYN

NİZAMİ PYESİ 1942-Cİ İLDƏ TAMAŞAYA QOYULMUŞDUR.





ARİF MƏLİKOV
BƏSTƏKAR

ZƏHMƏT FƏRYAD DEYİLDİR,
BİR ŞADLIQDIR İNSANA.
ZƏHMƏTİNİN AXIRI
RAHATLIQDIR İNSANA.



Arif Məlikov "Məhəbbət əfsanəsi" baletini tanınmış türk şairi Nazim Hikmətin "Fərhad və Şirin" əsəri əsasında yazdığı librettoya bəstələyib. Nazim Hikmət həmin əsəri görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından ilhamlanaraq qələmə alıb. Arif Məlikov isə faciəli sevgi və fədakarlıqdan bəhs edən qədim Şərq əfsanəsinə musiqi şəklində yeni həyat qazandırıb. Bəstəkar 3 pərdə,7 şəkildən ibarət əsər üzərində 1958-ci ildən işləməyə başlayıb və onu iki ilə bitirib.

"Məhəbbət əfsanəsi" baletinin dünya premyerası 1961-ci il martın 23-də Leninqrad Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Dövlət Akademik Mariya Teatrı) keçirilib. Tamaşanın quruluşçu baletmeysteri Yuri Qriqoroviç, rəssamı Simon Virsaladze, dirijoru Niyazi olub. Daha sonra tamaşanın Novosibirskdə təqdimatı keçirilib. 1962-ci ilin iyulunda isə Bakıda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində premyerası olub.

**“Məhəbbət əfsanəsi” baleti artıq 60 ilə yaxındır ki, dünya səhnələrini fəth edir. Əsər müxtəlif ölkələrin 60-dan çox teatrında dəfələrlə görkəmli baletmeysterlərin quruluşunda təqdim olunub. Səhnə əsəri ABŞ, Almaniya, Avstriya, Bolqarıstan, Böyük Britaniya, Braziliya, Çexiya, Estoniya, Finlandiya, Fransa, İtaliya, Qazaxıstan, Misir, Özbəkistan, Polşa, Rumıniya, Slovakiya, Türkiyə, Ukrayna, Yaponiya və digər dövlətlərdə rəğbətlə qarşılanıb.**

**“MƏHƏBBƏT ƏFSANƏSİ” BALETİNİN DÜNYA PREMYERASI 1961-Cİ İL MARTIN 23-DƏ LENİNQRAD OPERA VƏ BALET TEATRINDA (İNDİKİ SANKT-PETERBURQ DÖVLƏT AKADEMİK MARİYA TEATRI) KEÇİRİLİB.**



NAZİM HİKMƏT

ŞAİR

ÇOX İTİ ZEHİNLƏR YATAN OLDULAR, AXIRDA SAXSI QAB SATAN OLDULAR.



# Nizami Gəncəvi



Əziz şagirdlər!

Bilirsiniz ki, 2021-ci il NİZAMİ GƏNCƏVİ ilidir. XII əsr dahi Azərbaycan şairi vəmütəfəkkirinin yaradıcılığı ilə hamınız yaxından tanışsınız. O, dünya mədəniyyəti xəzinəsinə misilsiz əsərlər bəxş etmişdir. Gördüyünüz bu krossvordları Nizami Gəncəvinin əsərləri üzərində qurulub. Onları birinci həll edən şagirdi sürprizlər gözləyir!

## YUXARIDAN AŞAĞIYA

1. Nizaminin oğlunun adı
2. Nizaminin ilk ideal qadın obrazı
3. Lirik şeirlər toplusu
6. Nizami Gəncəvinin əsl adı

## SOLDAN SAĞA

4. Nizaminin qadın qəhrəmanlarından biri ( "Yeddi gözəl")
5. Nizaminin yazıb yaratdığı dil
6. Nizami Gəncəvinin iki hissədən ibarət poeması
7. "Aslanın erkəyi, dişisi olmaz" deyən qadın qəhrəmanı



## YUXARIDAN AŞAĞIYA

Nizami Gəncəvinin məşhur qəhrəmanlarını nə qədər tanıyırsınız?! Göstərilən şəkilləri müvafiq yerlərə qoymaqla şəkilli krossvordu həll edin!










## SOLDAN SAĞA

ÜRƏK SÖZƏ DİL
AÇDI, DEDİ Kİ:
"VER MƏNƏ CAN",
YOXSA, YOLMU
TAPARDI BU CANSIZ
BƏDƏNƏ CAN? !

Əzəl gündən qiymətli
bir incidir doğru söz,
Acısıyla könüllər
sevincidir doğru söz.

If true words be all
pearls, they are
indeed bitter,
because "Truth is bitter".

Yaxşılığı əzəldən
adət etsən özünə,
Yaxşılığın hər yanda
qapı açar üzünə.

The good that one
did returns to him
who began a good wook.

Cavablarınızı məktəbin MEDİA şöbəsinə təqdim edin.


HAMLET ISAKHANLI
Founder of Khazar University
RANA HASANOVA
Head of Dunya IB School
FRANCESCO BANCHINI
Head of the European Azerbaijan School
EINAR ILIYEV
Marketing manager of British council
GOSHGAR MAHARRAMOV
Education expert
JESUS ROSAS GONZALEZ
Google Certified Educator
MADINA KARAHAN
Philologist
NILUFAR ALIZADA
Clinical Psychologist
MAHIRA SADIGOVA
Teacher-Psychologist
NICOLETTE JOSEPH SUTHAKARAN
CELTA Certified Educator
27-28 FEB
LIVE
ON ZOOM
10 Speakers
2 Day
1 Link
VIRTUAL
YOUTH
CONFERENCE


Aliya Guliyeva
ibdp 1


Azer Mammadzada
myp 4 gade 8A


Amina Guliyeva
myp 5 grade 9a


Amina İsmayilova
MYP 4 grade 8A


Dilara Garibova
myp 5 grade 9a


Elnara İbrahimli
ibdp 1


Fidan İbrahimli
ibdp 1


İslam Khalilli
ibdp 1


Shahd Elaydy
myp 5 grade 9c


Seljan Huseynli
myp 5 grade 9c

**The tradition of holding educational conferences at Dunya IB School helps to bring together not only educators but also students to discuss the endeavors of international and national education systems.**

**The Youth Conference held on February 26-27, allowed us to recognize the challenges of remote learning which was discussed by teachers and students.**


Omur Bayramov
myp 5 grade 9a


Nazrin Hasanli
myp 5 grade 9A


Mikayil İsmayilov
ibdp 1


Mehdi Aliyev
myp 5 grade 9a


Mahammad Babayev
myp grade 9a


Leyla İmanova
ibdp 1


Zuleykha Nasibli
myp 5 grade 9A


Yusif Shukurlu
myp 4 grade 8a


Vasif İsmayilov
myp 5 grade 9a


Shams Mansimli
ibdp 1



Zeynab Allahverdiyeva
MYP 3 Grade 7A

# QARABAĞIN GÖZÜ - ŞUŞA

Əymə sən başını, başımın tacı,
Nəhayət tapılar dərdin əlacı.
Ər-aslan oğullar ayağa qalxar,
Ayaqlar altında qalan bayrağı,
Şuşa qalasının başına taxar.

Ulu öndər Heydər Əliyev Şuşanın ölkəmiz üçün dəyərini bu sözlərlə ifadə etmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

Qarabağın döyünən qəlbi, Azərbaycan musiqisinin beşiyi olan Şuşa 8 avqust 1930-cu ildə rayon statusu almışdır. İşğaldan əvvəl ərazidə 1 şəhər, 1 qəsəbə (Turşsu), 37 kənd olub. 1992-ci il may ayının 8-də erməni terrorçuları tərəfindən işğal edilib. Yerli əhalinin 193 nəfəri şəhid, 102 nəfəri isə əlil olub.

Şuşada yerləşən tarixi abidələr, muzeyler təhqirlərə məruz qalıb, məhv edilib. Şuşanın süqut edəcəyinə heç kəs inanmırdı. Şuşanın işğal olunduğu gün Azərbaycan xalqının ən acı günlərindən biri kimi yaddaşlarda qaldı. Azərbaycan xalqı həmin gündən bəri hər il qeyd edilən Xarıbülbül festivalını keçirmədi.

İllər sonra, işğalın 27-ci ildönümündə Ermənistan Baş Naziri Nikol Paşinyan Şuşada yallı rəqsi etməklə Azərbaycan xalqını təhqir etdi. Biz isə 28 il Şuşaya qayıdacağımız günü səbirsizliklə gözlədik.

44 günlük müharibədən sonra 8 noyabr 2020-ci ildə cənab Ali Baş Komandanın əmri ilə Azərbaycanımızın rəşadətli oğulları tərəfindən Şuşa şəhəri işğaldan azad olundu.

O gün gəldi.....Bütün ərazilərimiz kimi Şuşa da düşmən əsarətindən qurtuldu. Üçrəngli bayrağımız Şuşaya sancılarkən bizdən soruşdu: "Harada idiniz? Başım nələr çəkdi, nələr..... Adımı dəyişdirdilər, təcavüz etdilər, 28 il o pis dillərini eşitmə işgəncəsinə məruz qaldım. Ağladım, üsyan etdim. Sus dedilər, səni artıq kimsə duymaz dedilər ... Bəzən gecələr yuxuda vəhşət görərsən, bağırmaq istərsən, amma səsin çıxmaz, səhər qalxıb kabus olduğuna sevinərsən. Mən isə qalxıb sevinə bilmirdim, çünki gecə də, gündüz də kabus idi... Siz bəlkə də ümidinizi itirmişdiniz. Mənim isə ümid etməkdən başqa ümidim yox idi... Çox çarəsiz idim.....28 illik işgəncə bitəcəkmi?....Gərçək övladlarım məni xilas etməyə gələcəkmi?.....İlahi! Səslərinizi duyuram! Mən sizə qovuşuram!.... Çayınız balşəkər olsun, nuş olsun, igidlər! Sonuna qədər hər şeyi haqq etdiniz. Səhər-səhər ürəyim dağa döndü!"

Yenə qonaqlı-qaralı Cıdır düzü igidlərin məskəninə çevriləcək. Doğmalarının nəfəsinə həsrət qalan xarıbülbül əsrarəngiz gözəlliyi ilə hamını valeh edəcək... Xarıbülbül əfsanəsində deyilir ki, bülbül gülün əyilən qamətini düzəldir. Ancaq gülün xarı (yəni tikanı) onun sinəsinə sancılır. Bülbül məhv olur, ancaq gülü bir addım belə əyilməyə qoymur. Azərbaycanımızın mərd oğulları vətən uğrunda canlarını həmin bülbül kimi qurban verdilər. Onların sayəsində biz Cıdır düzündən qucaq-qucaq xarıbülbül toplayacağıq.......



Bu nə gözəl görüntüdür, Allahım! Şuşa! Bəli, biz səni azad etdik, Şuşa! Cıdır düzündən başqa heç yerdə kök salmayan xarıbülbülün gözündə yaş, üzündə qəmin olmasına, dağların başının isə ah çəkməsinə daha razı ola bilməzdik! Bütün qara buludları sənin üstündən dağıtdıq! Artıq sən bir günəş kimi işıq saçacaqsan



**Cahan Nəsirova**
IB bölümü
Azərbaycan dili və
Ədəbiyyatı müəllimi

# 21 FEVRAL - BEYNƏLXALQ ANA DİLİ GÜNÜ

## MƏNİM ANA DİLİM - MƏNİM KİMLİYİM...

Ana dilmizdən söz düşəndə, nədənsə, ilk öncə hələ 6 əsr bundan qabaq qüdrətli sərkərdəmiz Şah İsmayıl Xətayinin söyləmiş olduğu bu vəsiyyətini xatırlayıram " ... sizə üç əmanət qoyub gedirəm: Dilimiz, vicdanımız, vətənimiz"!

Bu dil bizə ulu babablarımızın əmanətidir. Onu yaşatmaq uğrunda mübarizə aparıb, gənc nəsillərə ötürən babalarımızın! Həqiqətən də, tarix boyu yağı düşmənlərimiz başı bir çox bəlalar çəkmiş dilimizi dəyişdirməyə, məhv etməyə çalışıblar. Lakin əzmkar, dözümlü, mərd xalqımızın mübarizəsi sayəsində bu mümkün olmayıb.

Biz çox xoşbəxtik ki, müstəqil vətənimizdə doğma dilimizdə danışırıq, yazırıq, oxuyuruq, təhsil alırıq. Bu o deməkdir ki, dilimiz yaşayır və hər bir xalqı yaşadan onun ana dilidir.

Dilimizin qorunması məsələsi vətənin, millətin təəsübünü çəkən ziyalılarımızı daim düşündürüb. Onlar dilimizi yad təsirlərdən qorumaq üçün dayanmadan mübarizə aparıblar. Bu mənada Cəlil Məmmədquluzadənin xidmətlərini xüsusilə qeyd etmək gərəkdir. **"Anamın kitabı"** əsərində görkəmli dramaturq ana dili məsələsinə böyük həssaslıqla yanaşmışdır.

Ədib **"Azərbaycan"** məqaləsində isə həmvətənlərinə **"Vətən, vətən,vətən! Dil,dil,dil! Millət,millət,millət! Dəxi bu dairələrdən kənar bəni-noi bəşər üçün özgə nicat yolu yoxdur."** – deyə müraciət edərək onları dilimizin saflığını, təmizliyini qorumağa səsləyirdi.

Xalq şairi Bəxtiyar Vahabzadə isə **"Latın dili"** şeirində ürək ağrısı ilə dilimizi latın dili ilə müqayisə edərək, milləti olmayıb, özü yaşayan latın dilini alqışlayır, özü var olmasına baxmayaraq dilini qoruya bilməyən millətin halına acıyır.

Bu gün dilimizi qorumaq və yaşatmaq bizlərin üzərinə düşür. Dünyanın hansı nöqtəsində oluruqsa, olaq, fərq etməz, dilimizi yaşadaq. Dilimizi yad təsirlərdən bacardığımız qədər qoruyaq.

Müasir dövrümüzdə dilimizlə bağlı vəziyyət ürəkaçandır. Azərbaycan dili müstəqil Azərbaycan Respublikasının dövlət dili kimi artıq ölkənin bütün ictimai, siyasi, iqtisadi, elmi və mədəni sahələrində işlədilir.

Biz müəllimlər də doğma dilimizi gənc nəsillərə sevə-sevə öyrətməkdən qürür duyuruq.

**KEÇMİŞİN ƏN DƏRİN QATLARINDAN SÜZÜLÜB GƏLƏN TARİXİMDİR MƏNİM DİLİM! BU DİLDƏ ANAMIN LAYLASI, NƏNƏMİN ŞİRİN NAĞILLARI, BAYATILARI YAŞAYIR!**

**KOROĞLUNUN, BABƏKİN, XƏTAYİNİN NƏFƏSİ DUYULUR, SABİRİN, ŞƏHRİYARIN, BƏXTİYARIN ŞEİRİ OXUNUR, CABBARIN, XANIN, QƏDİRİN NƏĞMƏSİ SƏSLƏNİR.**

**BU DİLDƏ CƏBHƏYƏ YOLA SALDI MƏRD ANALAR OĞULLARINI, KOMANDİRLƏRİMİZ " ƏSGƏR İRƏLİ"SÖYLƏDİ, BU DİLDƏ QƏLƏBƏ XƏBƏRİMİZİ ÇATDIRDIQ, ZƏFƏR NƏĞMƏMİZİ SƏSLƏNDİRDİK.**

**"QARABAĞ AZƏRBAYCANDIR – QARABAĞ BİZİMDİR". - DEDİK DÜNYAYA!**

IB SCHOOL



Təbrik Edirik!

# Könül Kazımova

Dünya IB məktəbində Azərbaycan dili və
Ədəbiyyatı departamentinin rəhbəridir.

YAS (CAS) kordinatoru olmaqla yanaşı, IB tələbələrinə IB təhsil proqramı üzrə Dil 1- Ədəbiyyat fənnini tədris edir. 2004-cü ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin bakalvr, 2006-ci ildə magistr pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2006-2010-cu illərdə BDU-da Azərbaycan ədəbiyyatı ixtisası üzrə doktorantura təhsili almışdır. 2018-ci ildə "Müasir Azərbaycan ədəbiyyatında janr və üslub məsələləri (1991-2005-ci illər)" mövzusu üzrə müdafiəsini uğurla etmişdir.

2020-ci İLDƏ FİLOLOGİYA ELMLƏRİ ÜZRƏ
FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİNİ ALMIŞDIR.

# ДЕБАТЫ В КНИЖНОМ КЛУБЕ








## СЕН СА ЦИЯ!

**Таинственная фабрика Вонки, которая на протяжении многих лет была закрыта для посетителей, откроет свои двери счастливчикам, отыскавшим золотой билет.**

**Дети получат уникальную возможность окунуться в мир сладостей и невероятных приключений. Как тут удержаться?**








Не остались в стороне
и наши юные читатели.
Сказочная повесть британского
писателя Роальда Даля вызвала
неподдельный восторг
у третьеклассников, а дебаты
в школьном **Книжном Клубе**
выявили настоящих знатоков
данного произведения.
Было увлекательно и весело.








100 Days of School!
PYP
HAPPY 100TH DAY OF SCHOOL
PYP
HAPPY 100TH DAY OF SCHOOL
PYP
100TH DAY CELEBRATIONS
PYP
100 DAYS OF SCHOOL!






В рассказе
**Евгения Пермякова**
**«Как Маша стала большой»**
первые строки звучат так:
«Маленькая Маша очень хотела вырасти. Очень. А как это сделать, она не знала...»



Евгений Андреевич
Пермяк
(1902-1982).






А наши первоклассники знают, как стать большими!
В этом им помогут книги! Они дадут ценный совет, многому научат.





Яркий глянцевый переплёт книги, красочные иллюстрации на каждой странице- это, конечно, здорово! Но самое главное, книга сегодня собрала наших юных читателей вместе.






Это их первое самостоятельное внеклассное чтение!





XƏZƏR UNİVERSİTETİ
DÜNYA ANA MƏKTƏBİ



**DÜNYA**
Hər uşağın öz dünyası qurulur...

**ANA**
Qayğısı göstərilir...

**MƏKTƏBİ**
Tək əyləncə deyil, ciddi təhsil verir...



## BİZİM FƏRQİMİZ

Dünya Təhsil Kompleksi 2009-cu ildən Beynəlxalq Bakalavr Təşkilatının (International Baccalaureate Organization) üzvüdür. Dünya Ana Məktəbində Beynəlxalq Bakalavr Təşkilatının Erkən Təlim Proqramı (Early Years Programme) tətbiq olunur. Hər yaş qrupuna uyğun proqramlar mövcuddur. Xüsusi hazırlanmış tədris materialları ilə uşaqlarda bacarıqlar inkişaf etdirilir. Əyləncəli oyunlar vasitəsilə uşaqlar informasiyanı daha tez qəbul edir və kollektivlə işləməyə alışırlar.

## SAĞLAM QİDA

Uşaqlar dadlı yeməyi sevir, valideynlər isə sağlam qidaya üstünlük verirlər. Biz hər iki tərəfin istəyini nəzərə alaraq, uşaqları gün ərzində 3 dəfə isti yeməklə təmin edirik.

## PEŞƏKAR MÜƏLLİMLƏR

Dünya Ana məktəbində uşaqlar Dünya məktəbinin ingilisdilli mütəxəssisləri tərəfindən daim yenilənən proqramlara əsasən təhsil alırlar. Hər uşağa fərdi yanaşmaqla biz onlarda müstəqillik hissinin inkişafı, özünəinam, sərbəst özünü ifadəetmə bacarıqlarını inkişaf etdiririk. Psixoloq, həkim, loqoped uşaqlara qayğı ilə yanaşır. Valideynlərlə müəllimlərin daimi əlaqədə olması uşaqların həyatsevər və xoşbəxt böyüməsinə kömək edir.

## NƏQLİYYAT

Arzu edən valideynlər Dünya Ana Məktəbinin servis xidmətindən istifadə edə bilərlər. Övladları Dünya Məktəbində təhsil alan valideynlər üçün Dünya Məktəbindən xüsusi avtobus xidməti təklif olunur. Ana məktəbi 16:00-a kimi fəaliyyət göstərir. Arzu edənlər üçün uzadılmış rejim mövcuddur.



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür. Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

## QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayon,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48